

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 105 (24.242)

*13 iyun 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidentinin köməkçisini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitini qəbul edib.

Prezident İlham Əliyev 12 İyun – Rusiya Günü münasibətilə təbriklərini çatdırdı.

İqor Levitin təbriklərə görə təşəkkür etdi. O, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

İqor Levitin Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, Ulu Öndərin 100 illiyinin Rusiyada geniş şəkildə qeyd olunduğunu məmnunluqla vurğuladı.

Görüşdə Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olundu.

Söhbət zamanı Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı üzrə qarşılıqlı səylərin davam etdirilməsi, yük həcmlərinin artırılması, Azərbaycan ərazisində müvafiq infrastrukturdan istifadə imkanları, müasir nəqliyyat habına çevrilən ölkəmizin ərazisindən Bakı-Tbilisi-Qars və Şimal-Cənub nəqliyyat dəhlizləri vasitəsilə daşımalar barədə fikir mübadiləsi aparıldı.

Gələcəkdə Zəngəzur dəhlizinin potensialından Rusiyanın istifadə imkanlarının araşdırılması ilə əlaqədar məsələlər müzakirə olundu. Azərbaycanda müasir gəmiqayırma sahəsinin imkanlarından istifadə edilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev “Starwood Capital Group” şirkətinin təsisçisi və icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də dünyanın aparıcı investisiya şirkətlərindən biri olan alternativ investisiyaların idarə edilməsi üzrə “Starwood Capital Group” şirkətinin təsisçisi və icraçı direktoru Berri Sternlixi qəbul edib.

Azərbaycanda bütün sahələrdə gedən inkişaf proseslərini və qısa zaman ərzində əldə olunan uğurları qeyd edən Berri Sternlix ölkəmizin regionda böyük rola malik olduğunu dedi. Qonaq vurğuladı ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə çoxillik və möhkəm əməkdaşlıq rəhbərlik etdiyi şirkət üçün böyük önəm daşıyır və onlar gələcəkdə bu əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlıdırlar.

Prezident İlham Əliyev dünyanın nəhəng və qabaqcıl maliyyə təsisatları ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun “Starwood Capital Group” şirkəti ilə sıx əlaqələrinin olmasını müsbət qiymətləndirdi və mövcud tərəfdaşlığın daha da gücləndirilməsi üçün səylərin davam etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev qeyri-sabit maliyyə bazarları dövründə də Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin artmasının müsbət hal olduğunu dedi.

Görüşdə Azərbaycanda münbit investisiya şəraitinin mövcudluğu qeyd edildi, energetika sahəsi, xüsusilə alternativ enerji, logistika, turizm sahələrinə əlverişli investisiya qoyuluşu üçün yaxşı imkanların olduğu vurğulandı və bununla bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın aparıcı investisiya şirkətlərindən biri olan “Starwood Capital Group” 1991-ci ildə təsis edilib. Şirkətin daşınmaz əmlak, kredit və enerji infrastruktur strategiyaları üzrə idarə etdiyi vəsaitlərin ümumi dəyəri hazırda 120 milyard ABŞ dolları təşkil edir. Şirkətin baş ofisi Amerika Birləşmiş Ştatlarında yerləşir və 35-dən artıq ölkəyə investisiya həyata keçirib. Hazırda portfel şirkətlərində 5 mindən artıq əməkdaş çalışır.

## Prezident İlham Əliyev Xalq artisti Oqtay Mirqasımova “İstiqlal” ordenini təqdim edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də görkəmli kinorejissor, ssenarist, Xalq artisti Oqtay Mirqasımova “İstiqlal” ordenini təqdim edib.

Xalq artistini təbrik edən **Prezident İlham Əliyev** dedi:

– Hörmətli Oqtay müəllim, bu gün sizin yubileyinizdir. Bu yubiley münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Siz uzun illərdir, kino sənətinin inkişafında çox fəal işləyirsiniz. Son illər ərzində Azərbaycanda gördüyünüz işlər hamımızı çox sevindirir. Siz həm görkəmli rejissor kimi, həm pedaqoq kimi böyük şöhrət qazanmısınız. Azərbaycan kinosunun inkişafında sizin çox böyük rolunuz vardır.

**Oqtay Mirqasımov:** – Minnətdaram.

**Prezident İlham Əliyev:** – Eyni zamanda ictimai həyatda da fəalsınız, həmişə öz vətəndaşlıq mövqeyinizi bəyan etmisiniz. Cəmiyyəti narahat edən məsələlərlə bağlı sizin dəyərli fikirləriniz çox böyük önəm daşıyır. Sizin fəaliyyətiniz Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Siz 2003-cü ildə “Şöhrət”, 2018-ci ildə “Şərəf” ordeni ilə təltif olunmusunuz. Bu gün – yubileyiniz olan gündə siz Azərbaycan dövlətinin yüksək ordeni olan “İstiqlal” ordeni ilə təltif edilirsiniz. Mən sizi ürəkdən təbrik etmək və bu ordeni sizə təqdim etmək istəyirəm.

***

Dövlətimizin başçısı “İstiqlal” ordenini Oqtay Mirqasımova təqdim etdi.

**Prezident İlham Əliyev:** – Təbrik edirəm.

**Oqtay Mirqasımov:** – Siz həm gözəl sərkərdə, gözəl siyasətçi, sözündən dönməyən kişisiniz. Bu keyfiyyətlər bizim üçün önəmlidir. Biz uşaqlıqdan belə böyümüşük – həmişə əsgər, qəhrəman bizim üçün kumir olub. Allah razı olsun. Siz böyük Heydər Əliyevin – atanızın oğlusunuz. Bu, çox böyük bir işdir və adama nə qədər ruh verir. Bunu hər kəs bilir.

**Prezident İlham Əliyev:** – Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram.

**AZƏRTAC**

## Professor Əjdər İsmayılovun 85 illik yubileyinə həsr olunan elmi-praktiki konfrans keçirilib






İyunun 12-də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin siyasi silahdaşı, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, cavidşünas alim, filoloq-tarixçi, “Turan Araşdırma Mərkəzi” İctimai Birliyinin təsisçisi və ilk sədri, Yeni Azərbaycan Partiyasının ən fəal qurucularından olan mərhum professor Əjdər Tağı oğlu İsmayılovun anadan olmasının 85 illiyinə həsr olunan “Dövləti qoruyun!” adlı elmi-praktiki konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Sonra vətənpərvər alimin həyatı, elmi, ictimai-siyasi, pedaqoji fəaliyyəti haqqında geniş və dolğun məlumatı özündə əks etdirən “Dünənin sabahı” filmi nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev açaraq görkəmli ziyalı Əjdər İsmayılovun həyat və yaradıcılığından danışıb. Rektor bildirib ki, görkəmli alim, tanınmış ziyalı Əjdər İsmayılov 23 aprel 1938-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Çomaxtur

*Ardı 2-ci səhifədə*

kəndində anadan olub. O, 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. 1963-1965-ci illərdə Azərbaycan Teatr İnstitutunun Rejissorluq fakültəsində təhsil alıb. 1961-1977-ci illərdə Çomaxtur kəndində müəllim, məktəb direktoru, Daxili İşlər Nazirliyinin, “Şərq qapısı” qəzetinin əməkdaşı, 1977-1994-cü illərdə Naxçıvan Dövlət Universitetinin Ədəbiyyat kafedrasında müəllim, baş müəllim, dosent və professor olub. Qeyd olunub ki, filoloq-tarixçi 300-ə yaxın elmi əsər, məqalə və müsahibənin müəllifidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov çıxış edərək diqqətə çatdırıb ki, Yeni Azərbaycan Partiyasının yaradıcılarından olan Əjdər İsmayılovun elmi fəaliyyəti ilə yanaşı, siyasi fəaliyyəti də təqdirəlayiqdir. Əjdər İsmayılov ötən əsrin 90-cı illərində ölkəmizdə baş verən ağır ictimai-siyasi mübarizədə Ümummilli Lider Heydər Əliyevin daim yanında olub və xalqın azadlığı uğrunda mübarizə aparıb. O, 1992-ci ildə Azərbaycan Respublikasına prezident seçkisi öncəsi Şərur əhalisinin toplantısını təşkil edib, dahi şəxsiyyət Heydər Əliyevin prezidentliyə namizədliyini irəli sürdürüb. Bu toplantı görkəmli dövlət xadiminin Azərbaycanı müstəqilliyə aparacaq mübarizə yolunun başlanğıcı olub. 1992-ci ildə Əjdər İsmayılov Şərur rayonunda ziyalılardan ibarət “Heydər Əliyev tərəfdarları” təşəbbüs qrupunu yaradıb, rayon ərazisini dairələrə ayırıb və bir neçə ayda otuz iki mindən artıq tərəfdar siyahıya yazılıb. Şərurluların bu fəaliyyəti 1992-ci il 21 noyabr tarixdə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilən təsis konfransının tarixi əsasını qoyub. 1992-ci il 24 apreldə Əjdər İsmayılov keçmiş Azərbaycan SSR Ali Sovetinin binası qarşısında ədalətsiz “Yaş senzi” ilə bağlı keçirilən mitinqlərin fəal təşkilatçılarından və iştirakçılarından olub. 1992-ci ilin 28 oktyabr tarixdə Naxçıvan Muxtar Respublikası ictimaiyyəti nümayəndələrinin Ali Məclisin binasında keçirilən toplantısında az qala uçuruma yuvarlanan ölkənin xilasına gəlmiş dahi rəhbər Heydər Əliyevin ətrafında sıx birləşməyə çağırıb. 1994-cü il 5 oktyabr tarixdə Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Azadlıq meydanında yüz minlərlə insanın iştirak etdiyi dövlət çevrilişinə etiraz mitinqinin təşkilatçılarından biri də məhz Əjdər İsmayılov olub.

Konfransda çıxış edən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, bənzərsiz şəxsiyyəti ilə seçilən Əjdər İsmayılovun ədəbiyyatşünaslıq, tarix, dilçilik, türkologiya və digər sahələrdə apardığı bütün tədqiqatlar Azərbaycan elmi üçün mühüm töhfələrdir. Qeyd edilib ki, Əjdər İsmayılov “Moisey Xorenatsi anonim keşiş müəllifdir”, “Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir” kimi uydurma tarix və şəxsiyyətlərlə bağlı ciddi əsərlər ortaya qoyub, Albaniya ilə bağlı önəmli araşdırmalar aparıb və həmin tədqiqatlar bu gün alban ədəbiyyatını, mədəniyyətini, ictimai fikrini öyrənənlər üçün qiymətli mənbələrdir. Əjdər İsmayılovun ölkəmizin ictimai-siyasi həyatında da yaxından iştirak etdiyini vurğulayan İsmayıl Hacıyev onun Ümummilli Liderimizin ən yaxın silahdaşlarından və məşhur “91-lər”dən olduğunu qeyd edib. Əjdər İsmayılovun Heydər Əliyevçilik uğrunda sonacan, qətiyyətlə, təmənnasız mübarizə apardığını deyən akademik bildirib ki, o, həyatının sonuna qədər Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq qalıb, əsl vətəndaşlıq mövqeyi nümayiş etdirib.

Konfransda, həmçinin AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun kiçik elmi işçisi, Hüseyn Cavid irsinini tədqiqatçısı Səbinə Dünyamalıyeva, Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının sədri Vüsal İsmayılov, tarixi romanlar müəllifi, yazıçı-publisist Yunus Oğuz, professorun tələbəsi, şair Rüstəm Behrudinin çıxışları olub. Çıxışlarda alimin ictimai-siyasi fəaliyyətindən, apardığı ədəbi, tarixi, albanşünaslıq, dil, filologiya sahəsindəki tədqiqatlardan bəhs edilib.

Sonda çıxış edən Əjdər İsmayılovun oğlu, iqtisadçı alim, hüquqşünas, Turan Araşdırma Mərkəzinin sədri Cavid İsmayıl atası ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb, onun Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqliyi, dövlətçiliyə xidmətləri ilə qürur duyduğunu vurğulayıb. Cavid İsmayıl atasının 85 illik yubiley tədbirində göstərdiyi dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimova Turan Araşdırma Mərkəzinin Fəxri fərmanını təqdim edib.

Qeyd edək ki, konfransda, eyni zamanda professorun Azərbaycan və türk dillərində çap olunmuş kitabları, qəzetlərdə çap olunan məqalələri sərgilənib. Bir neçə adda olmaqla, 30-dan artıq kitab universitetin Elmi Kitabxanasına hədiyyə edilib.

✍ **Gülcamal TAHİROVA**

*2023-cü il “Heydər Əliyev İli”dir*

# Musiqidə əbədiləşən dahi ömrü



*Ulu Öndər Heydər Əliyev incəsənətimizə, mədəniyyətimizə, xüsusən də musiqimizə həmişə böyük qayğı və diqqətlə yanaşmış, mədəniyyətimizin inkişafı üçün xeyirli işlər görmüşdür. Dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi dövr Azərbaycan incəsənətinin və musiqisinin “Qızıl dövrü” adlandırılır. Ulu Öndərin dərin zəkası və milli ənənələrimizə qəlbən bağlılığı sayəsində mədəniyyətimiz uca zirvələr fəth etdi.*

Bu, bir həqiqətdir ki, Azərbaycan mədəniyyətinin görkəmli xadimləri Ümummilli Lider Heydər Əliyev dövründə olduğu qədər heç zaman tanınmamışlar. Dahi şəxsiyyət mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirirdi. Azərbaycanın müqtədir sənətkarları sovet dövründə məhz Onun qayğısı nəticəsində ən yüksək fəxri adlara layiq görülmüşlər. Xalqımızın dahi oğlu bəstəkarların, kinematoqrafların, teatr xadimlərinin, rəssamların qurultaylarında, konfranslarında iştirak edir, dərin məzmunlu nitqi alqışlar ilə qarşılanırdı. Ulu Öndərin mədəniyyət məsələləri ilə bağlı hər çıxışı həmin sahənin gələcək inkişaf proqramına çevrilirdi. Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilir: *“Xalqımızı vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur”.*

Görkəmli dövlət xadimi respublikamıza rəhbərlik etdiyi illərdə Azərbaycan mədəniyyətinin, incəsənətinin tərəqqisi, dünyada tanınması üçün müstəsna xidmətlər göstərib. Bu diqqət və qayğının mühüm bir hissəsi Azərbaycan musiqisinin inkişafı ilə bağlı olub. Dahi rəhbər xalqımızın dərin köklərə malik olan milli musiqimizin, eyni zamanda professional musiqi sənətinin gözəl bilicisi idi. Milli və professional musiqimizin dünyada tanınması, bəstəkarların, ifaçıların və musiqişünasların fəaliyyətinin yüksək qiymətləndirilməsi, yaradıcılıq evlərinin tikilməsi, maddi təminatlarının yaxşılaşdırılması, fəxri adlar, orden və medallarla təltif olunması və daha neçə-neçə bu cür əvəzsiz xidmətlər məhz Ulu Öndərin adı ilə bağlıdır. Ümummilli Liderimiz zəngin ensiklopedik biliyə malik olan dahi şəxsiyyət idi. Bu mənada, incəsənətin bir qolu olan musiqi də onun diqqətindən kənar deyildi. O, musiqini çox sevir, bu sənətin sirlərini dərindən bilirdi. Görkəmli musiqiçilərlə yaxın ünsiyyəti vardı və bu münasibətlər musiqi sənətinin inkişafına xidmət edirdi. Bu musiqiçilərin, incəsənət xadimlərinin dahi şəxsiyyətin ruhuna ehtiramının bir zərrəsi idi. Çünki Ona, Onun xatirəsinə ehtiram sonsuzdur. Odur ki, Azərbaycan musiqisində bu dahi şəxsiyyətə həsr olunan əsərlər yaranır və yaranacaq.

***“Bizdən sonra əməllərimiz qalacaq”***, – deyən müdrik şəxsiyyətin mədəniyyətimizin, o cümlədən musiqimizin himayəsi yönündə gördüyü işləri tarixin yaddaşına köçürmək bizim mənəvi borcumuzdur. Onun xalqı və Vətəni qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin səhifələrinə əbədi həkk olunub, incəsənətin, musiqinin dili ilə də özünün yüksək təcəssümünü tapıb, dahi rəhbər haqqında neçə-neçə ölməz sənət əsəri yaranıb. Azərbaycan bəstəkarlarının yaratdığı belə əsərlərdən bir neçəsinin adını çəkmək yerinə düşərdi: Cövdət Hacıyevin 8 saylı “Onu zaman seçib” simfoniyası, Arif Məlikovun 8 saylı “Əbədiyyət” simfoniyası, Ramiz Mustafayevin “Atamız Heydər”, Sərdar Fərəcovun “Böyük vətəndaş haqqında” odaları, Vasif Adıgözəlovun “Azərbaycan” kantatası, Tofiq Bakıxanovun “Xatirə” poeması, Firəngiz Əlizadənin “İthaf” əsəri, gənc bəstəkar Vasif Allahverdiyevin “Ömür yolu” simfonik poeması və digər əsərlər bu qəbildəndir.

Dahi şəxsiyyətin Azərbaycan mədəniyyətinə göstərdiyi qayğı heç vaxt unudula bilməz. O, bəstəkarların yaxın dostu idi. Vaxtilə SSRİ dövründə Azərbaycanın bir neçə görkəmli sənətkarına “Sosialist Əməyi Qəhrəmanı” kimi ən böyük fəxri ad verilmişdi. Bu sənətkarlar Qara Qarayev, Fikrət Əmirov, Niyazi və Rəşid Behbudov idi. Bu fəxri adların sənətkarlarımıza verilməsi, onların yüksək sənətkarlığı ilə bərabər, eyni zamanda respublikaya rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin yüksək nüfuzunun təcəssümü idi.

1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra O, respublikamız üçün ən çətin dövrdə də incəsənət xadimlərinin sənətlə məşğul olmaları üçün lazımi şərait yaratdı, onları mənzillə təmin etdi, Prezident təqaüdü ayırdı. Əlbəttə, bu dahi şəxsiyyət haqqında çox danışa bilərik. Çünki hansı sahəyə nəzər yetirsək, hansı sənətkarın yaradıcılığına müraciət etsək, orada Ulu Öndər Heydər Əliyevin misilsiz rolunun və xidmətinin şahidi oluruq.

Bu dahi şəxsiyyət hələ sovetlər dönəmində Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Nə qədər kinoteatr binaları, muzeylər inşa olundu, mədəniyyətimizin kadr potensialı gücləndirildi. SSRİ-nin ən nüfuzlu incəsənət yönlü ali məktəblərində Azərbaycan gəncləri təhsil alıb, Bakıya döndülər. Sankt-Peterburqun, Moskvanın teatr, rəssamlıq, musiqi üzrə ali təhsil ocaqlarını bitirmiş gənclər bu gün Azərbaycan mədəniyyətinin aparıcı sənətkarlarıdır. Dahi şəxsiyyət bu kadrların hazırlanmasında ona görə maraqlı idi ki, gələcək müstəqil Azərbaycanımız üçün onlar gərəkli mütəxəssis olacaqdılar. Necə ki oldular da. Bizim nəsil xoşbəxtdir ki, dahi şəxsiyyət Heydər Əliyevlə bir epoxada yaşamaq bizə nəsib oldu və Ulu Öndərin mədəniyyətimizə, incəsənətimizə göstərdiyi böyük qayğının şahidinə çevrildik.

Azərbaycan müstəqillik qazandıqdan sonra bir müddət mədəniyyətimiz böyük çətinliklər qarşısında qalsa da, görkəmli dövlət xadiminin hakimiyyətə yenidən qayıdışı Azərbaycan mədəniyyətinin də tərəqqisinə yeni təkan verdi. Sosial problemlər ucbatından xarici ölkələrə üz tutan sənət adamları Vətənə döndülər, onlara xüsusi qayğı göstərilməyə başlandı. Bağlanmış teatrlar, kitabxanalar, muzeylər öz qapılarını yenidən tamaşaçıların üzünə açdı, Azərbaycanda bir çox mədəniyyət müəssisələri təmir olundu.

Ümummilli Liderin yolunu şərəf və ləyaqətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də elm, təhsil, mədəniyyət və incəsənət sahəsində Heydər Əliyev kursunu uğurla davam etdirir. Dövlət başçımızın imzaladığı bir sıra fərman və sərəncamlar respublikamızda bu sahələrin müasir dünya standartlarına uyğunlaşmasında böyük rol oynamışdır. ***“Qloballaşan dünyada Azərbaycan Respublikası və azərbaycanlılar özünün maddi-mənəvi və intellektual potensialına uyğun layiqli yer tutacaqdır”***, – deyən Prezident xalqın milli xüsusiyyətlərinin və milli dəyərlərinin dünyada yayılmasında ədəbiyyatın və mədəniyyətin böyük rolunu xüsusi qeyd etmişdir.

Ümummilli Lider Heydər Əliyevin mədəniyyət siyasətinin reallaşması işində bu gün Ulu Öndərin adını şərəflə daşıyan Heydər Əliyev Fondunun böyük xidmətləri vardır. Milli-mənəvi dəyərlərimizə qayğı, onların qorunması və təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Fondun muğam sənətimizin inkişafına, Azərbaycan mədəniyyətinin dünyada tanınmasına, milli-mənəvi dəyərlərimizin təbliğinə həsr etdiyi davamlı tədbirlər olduqca əhəmiyyətlidir.

Naxçıvan yarandığı gündən mədəniyyət, sənət, ədəbiyyat beşiyi olub, dünya mədəniyyətinə onlarla qüdrətli sənətkarlar bəxş etmişdir. Doğma yurdu Naxçıvanın mədəniyyəti, incəsənəti, musiqisi də Ulu Öndərin daim diqqət mərkəzində olmuşdur. ***“Əsrarəngiz gözəlliyə malik olan, dünya elminə, ədəbiyyatına, diplomatiyasına dahilər bəxş etmiş Naxçıvan həm də görkəmli musiqiçilər diyarıdır”***, – deyən Ümummilli Lider Heydər Əliyev Naxçıvan musiqi mədəniyyətinə böyük qayğı göstərmiş, onun inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

Dahi bəstəkar Üzeyir Hacıbəylinin təşəbbüsü ilə ilk musiqi məktəbinin açılması, Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrinin Naxçıvanda fəaliyyət göstərməsi, Naxçıvan dövlət konsert briqadasının yaradılması, Niyazinin, Bülbülün, Rəşid Behbudovun və bir çox musiqiçilərin Naxçıvan musiqiçiləri ilə yaradıcılıq əlaqələri bu qədim diyarda ifaçılıq və bəstəkarlıq sənətinin yüksəlməsinə böyük təsir göstərməyə bilməzdi. Ulu Öndər Naxçıvanda musiqiçi kadrların yetişməsi, istedadlı gənclərin musiqi təhsilinə cəlb olunması, milli musiqi alətlərinin, xalq mahnılarının yaşadılması, eləcə də klassik və müasir dünya bəstəkarlarının əsərlərinin öyrədilməsi ideyası ilə 1975-ci ildə Naxçıvanda yeni təhsil ocağının – Orta İxtisas Musiqi Məktəbinin yaradılmasını məqsədəuyğun hesab etmişdir. Bu tədris müəssisəsinin yaradılması ilə Naxçıvanın mədəni həyatında yeni bir mərhələnin başlanğıcı qoyuldu.

1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyində iştirak edən Ümummilli Lider yekun konsertdən sonra musiqiçilərin çıxışları haqqında demişdi: ***“Sevinirəm ki, Naxçıvanda, bu qədim diyarda belə gənc incəsənət ustaları yetişir. Musiqiçilər, müğənnilər tərəfindən həm milli musiqimiz, həm də Avropa musiqisinin ifası, kamera orkestri, xor kopellasının çıxışları çox xoş təsir bağışladı. Burada gördüklərimizin hamısı onu göstərir ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq demokratiya, dünyəvi dövlət quruculuğu, hüquq, haqq yolu ilə gedir”.*** Unudulmaz rəhbərin dediyi bu sözlər, Naxçıvan musiqiçilərinin çıxışlarına verdiyi yüksək qiymət təməli dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulan, musiqi mədəniyyətimizin inkişafına aparan yolların doğruluğuna, seçilən xəttin ardıcıllığına işarə idi.

*İllər keçdikcə müstəqil Azərbaycanın memarı, Ümummilli Liderimiz Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin miqyasının böyüklüyü daha aydın görünür. Haqqında bəstələnən mahnıda da deyildiyi kimi: “Sən elə bir zirvəsən ki, buludlar neyləyəcək?” Ulu Öndərin* ***“Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!”*** *fikirləri dünənimiz, bu günümüz və gələcəyimiz üçün gördüyü bütün işlərin aydın mənzərəsini yaradır. Vətən, xalq sevgisi Ulu Öndərin atdığı hər bir addımda özünü parlaq şəkildə göstərdi. Təbii ki, bu gün görkəmli dövlət xadimi Heydər Əliyevin əziz xatirəsi təkcə ürəklərdə deyil, sənət əsərlərində, musiqidə də əbədiləşərək yaşayır. Onun ömür yolu hələ neçə-neçə sənət əsərlərinə qanad verəcək, neçə-neçə musiqi əsərində dahi insanın şəxsiyyəti canlanacaq.*

**Məhəbbət BABAYEVA**
*Naxçıvan Musiqi Kollecinin direktoru,*
*Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi*

## Paşinyan riyakar və təhlükəli gedişlərin doğura biləcəyi acı nəticələrin fərqində deyil

Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya son səfəri zamanı verdiyi açıqlamalar bir daha göstərdi ki, o, natamam siyasətçi kimi oynadığı riyakar və təhlükəli gedişlərin doğura biləcəyi acı nəticələrin fərqində deyil. Avropa səfərlərində özünü demokrat kimi göstərən, Qərbin xoşuna gələn açıqlamalar verən Paşinyan Moskvada asanlıqla mövqeyini dəyişib ruspərəst olur, Prezident Putinə təriflər yağdırır, yumşaq desək, ona yaltaqlanır. Təbii ki, Moskvada Ermənistanın indiki rəhbərliyinə, sorosçu Paşinyana etibar yoxdur, onun açıqlamalarını səmimi qəbul etmirlər. Kremldə yaxşı anlayırlar ki, fürsətcil Ermənistan rəhbərliyi Rusiyanın çöküşünü səbirsizliklə gözləyir, onun dünyada təklənməsindən sevinir.

Qərbdə də Paşinyan komandasına inam yoxdur. Rusiyaya tətbiq edilmiş sanksiyalar kontekstində Ermənistanın "boz zona" kimi qalması faktdır. Bu gün Ermənistan nadir ölkədir ki, Rusiyaya sanksiyalar tətbiq olunmasına baxmayaraq, bu ölkəyə malların daşınmasını artırır.

Qərbin sanksiyalardan yayınmaq istəyən Ermənistana göz yumması başadüşülən deyil. Maraqlıdır ki, ABŞ-Rusiya soyuq savaşında ikiüzlülük göstərən tək Ermənistan deyil. İrəvanın böyük bacısı sayılan Paris də Rusiya mövzusunda qeyri-stabil davranır. Bir tərəfdən Ukraynaya dəstək ifadə edir, digər tərəfdən də Parisin Moskva ilə gizli danışıqlar apardığına dair məlumatlar vardır. Cəmi 29 min kvadratkilometr ərazisi olan bir ölkədə Rusiya hərbi qüvvələri ilə yanaşı, Fransanın da təqaüdçü polisləri "xidmət" göstərirlər. İrəvan ABŞ-ın strateji düşməni İran, habelə Fransa və Hindistan hesabına silahlanmağa çalışır.

Paşinyanın başa çatan Rusiya səfəri və orada Putinin qulağına xoş gələn sözlər deməsi Ermənistanı böhrandan xilas edə bilməyəcək. Qeyri-ardıcıl, qeyri-prinsipial siyasi xətt yürüdən İrəvanın anti-Azərbaycan, anti-Türkiyə siyasəti onu bataqlığın dərinliklərinə sürükləyir. Ermənistan başa düşməlidir ki, onun nicatı, böhrandan çıxması sanksiyalar altında olan Rusiyaya və İrana, yaxud da min kilometrlərlə uzaqda yerləşən Fransaya yaltaqlanmasında deyil, sürətlə inkişaf edən Azərbaycan və Türkiyə ilə münasibətləri nizama salmaqdan keçir.

**Cəbi QULİYEV**
***Milli Məclisin deputatı***

## Yeni Dövlət Proqramı muxtar respublika iqtisadiyyatının inkişafının dövlət tənzimlənməsini və yeni hədəfləri müəyyənləşdirir

*Ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamla imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"dır. Proqram ölkəmizin yeni iqtisadi reallıqları nəzərə alınmaqla və muxtar respublikanın iqtisadi inkişaf potensialının və uzunmüddətli iqtisadi perspektivlərinin aktuallığı əsas tutulmaqla hazırlanmışdır.*



Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin olunması və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir.

8 bölmədən ibarət olan proqramda muxtar respublikada əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin, infrastruktur təminatının, sosial sektorun, insan kapitalının inkişafı ətraf mühitin mühafizəsinin gücləndirilməsi, elektrik enerjisi istehsalının və ixracının artırılması və digər məsələlər özünə yer alıb. Bu isə yeni iqtisadi və sosial inkişaf mərhələsi üçün olduqca zəruridir.

İşğaldan azad edilən ərazilərdə bu gün həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır.

Yeni dövlət sənədində muxtar respublika iqtisadiyyatının mövcud vəziyyətinin təhlili aparılmış, əldə edilən nailiyyətlər əsaslandırılmış, mövcud çağırışlar nəzərə alınmaqla bir sıra tədbirlərin görülməsi məqsədəuyğun hesab olunmuşdur. Həmin sferada, iqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlərin daha da möhkəmləndirilməsi, eləcə də regionun potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması məsələlərinə yanaşma ortaya qoyulmuşdur. Sahibkarlıq fəaliyyətinin və biznes mühitinin daha da yaxşılaşdırılması, sağlam rəqabətin təşəkkülü, bank və sığorta sahəsindəki əlçatanlığın gücləndirilməsi və digər məsələlər proqramın aktuallığını artırmışdır. Bu məqsədlə "Lisenziyalar və icazələr portalı"nın fəaliyyətə başlaması, satınalmaların elektron portal vasitəsilə təşkili, sahibkarlıq subyektlərində aparılan yoxlamaların vahid reyestrinin formalaşdırılması kimi proseslər də diqqətdə saxlanılmışdır.

Eyni zamanda "ASAN xidmət", "DOST" və digər mərkəzlərin fəaliyyətə başlaması və bu istiqamətdə dövlət xidmətlərinə əlçatanlığın təmin olunmasından, təbii ehtiyatlar hesabına hasilat sənayesinin perspektivliliyinin artırılmasından, yeni sənaye sahələrinin yaradılmasından, mövcud istehsal sahələrinin fəaliyyətinin daha da gücləndirilməsindən, həmçinin ayrı-ayrı sahələrdə güzəştlərin tətbiqinin nəzərdə tutulduğu sənaye zonasının yaradılmasından ibarət olan dayanıqlı sosial-iqtisadi inkişaf mühitinin təşəkkülü hədəflənmişdir.

Dövlət Proqramında muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində əlaqəli tədbirlərin həyata keçirilməsi, bu sahədə cari potensialın qorunması və Günəş Elektrik stansiyalarının tikintisi və digər bu kimi təsisatların yaradılması nəzərdə tutulmuşdur.

Yeni dövlət sənədinin mühüm hədəflərindən birini də muxtar respublikanın qaz təchizatının dayanıqlığının gücləndirilməsi kimi amillər təşkil edir. Bu məqsədlə muxtar respublikanın ərazisində Türkiyə sərhədinədək 18 kilometr uzunluğunda magistral boru kəmərinin çəkilməsi ilə Naxçıvan Muxtar Respublikasının Türkiyənin qaz şəbəkəsi ilə əlaqələndirilməsi daha aktual hesab olunmuşdur.

Bununla yanaşı, kənd təsərrüfatının önəmini nəzərə alaraq mövcud suvarma suyu şəbəkəsinin yenilənməsi nəzərdə tutulmuşdur. Müasir iqtisadi inkişaf baxımından aktuallığı artırmış olan çoxistiqamətli turizm infrastrukturunun təşəkkülü də diqqəti çəkir. Eyni zamanda vergi və gömrük güzəştləri müəyyən olunmaqla, rəqabətqabiliyyətli ticarət qovşağının yaradılması imkanının dəyərləndirilməsi də yeni iqtisadi reallıqlar baxımından aktuallığı ilə seçilir.

Muxtar respublika əhalisinin fiber-optik və mobil internet xidmətlərinə çıxış səviyyəsinin yüksəldilməsi və dayanıqlığının təmin olunması, kəndlərdə içməli su təminatının artırılması kimi tədbirlərin həyata keçirilməsi səmərəli hesab olunmuşdur. Həmçinin regionlararası iqtisadi-istehsal münasibətlərinin inkişafı məqsədilə yaranan nəqliyyat xərcləri üçün xüsusi güzəştlər sisteminin formalaşdırılması və bu zaman nəqliyyat infrastrukturunun etibarlılığının artırılması da strateji mahiyyət kəsb etməkdədir.

Burada, eyni zamanda yeni iqtisadi reallıqlar müstəvisində Zəngəzur dəhlizinin istismara verilməsindən sonrakı mərhələdə əhalinin rifah göstəricilərinə, məşğulluq təminatının gücləndirilməsinə, muxtar respublika əhalisi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhalisi arasında ikitərəfli ticarət münasibətlərinin inkişaf perspektivlərinə də təminat yaradılmış olacaq.

*Beləliklə, Dövlət Proqramı Naxçıvan Muxtar Respublikasının ölkənin uzunmüddətli milli iqtisadi inkişaf strategiyasının həyata keçirilməsində olduqca mühüm tərəflərinə görə seçilməkdədir. Həmin hüquqi və tarixi sənədin həyata keçirilməsi məqsədilə 11 maddədən ibarət olan Tədbirlər Planı da təsdiq edilmişdir. Müvafiq strukturların icrası əsasında nəzərdə tutulmuş olan həmin tədbirlər 2023-2027-ci illər ərzində muxtar respublika iqtisadiyyatının hərəkətverici qüvvəsinə çevrilmiş olacaq.*

**Cavadxan QASIMOV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## Həkim-onkoloq Əkbər Mehdiyevin 75 illik yubileyi qeyd edilib



Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin Radiologiya şöbəsinin müdiri Əkbər İsmayıl oğlu Mehdiyevin 75 illik yubileyi və muxtar respublika səhiyyəsindəki 50 illik səmərəli fəaliyyəti qeyd edilib. Yubilyar həkim Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin "Təşəkkürnamə"si ilə təltif edilib və onkoloq-həkimə hədiyyələr təqdim olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov bildirib ki, 15 iyun 1948-ci ildə Babək rayonunun Məmmədrza Dizə kəndində anadan olan Əkbər Mehdiyev 1966-cı ildə Naxçıvan şəhər 32 nömrəli peşə məktəbini bitirib, 1967-ci ildə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olub, 1973-cü ildə həmin universiteti bitirərək Naxçıvan Muxtar Respublika Gigiyena və Epidemiologiya Mərkəzində həkim kimi fəaliyyətə başlayıb. 1973-cü ilin noyabr və 1974-cü ilin fevral aylarında Rusiyanın Stavropol şəhərində xüsusi təhlükəli infeksion xəstəlikləri üzrə kurs keçib. Həmin ildən də Azərbaycan Milli Elmlər Akademiyasının Fiziologiya İnstitutunun Radiobiologiya bölməsinə kiçik elmi işçi qəbul olunub.

Bu illər ərzində müxtəlif kursları yüksək nailiyyətlərlə bitirən Əkbər həkim 1986-cı ildən Naxçıvan Onkoloji Mərkəzində həkim kimi fəaliyyətini davam etdirir və hazırda Radiologiya şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərməkdədir.

Bildirilib ki, xalqımız tarixən həkimlik sənətinə ən ülvi bir peşə, həkimə müqəddəs bir şəxs kimi baxıb. Sənətini yaxşı bilən, xalqın sağlamlığı keşiyində ləyaqətlə dayanan həkimlərə böyük ehtiram göstərilib. Belə həkimlərdən olan Əkbər Mehdiyevin onkologiya sahəsində xidmətləri danılmazdır.

Çay süfrəsi ətrafında davam edən tədbirdə iştirakçılar və illərdir, çiyin-çiyinə çalışan iş yoldaşları yubilyara təbriklərini çatdırıb.

Sonda yubilyar həkim Əkbər Mehdiyev göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasında sosial sığorta haqları üzrə daxilolmalar 59,9 milyon manatdan çox olub

Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin yanvar-may aylarında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 59,9 milyon manat təşkil etməklə ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,3 faiz və ya 6,6 milyon manat artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 19,4 faiz artaraq 16,6 milyon manat təşkil edib.

Yanvar-may aylarında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,9 faiz artıb və 1,5 milyon manatdan artıq olub.

2023-cü ilin 5 ayında icbari tibbi sığorta haqları üzrə daxilolmalar 9,3 milyon manat olmaqla ötən ilin eyni dövrünə nisbətən 11,9 faiz artıb.

## Vergi daxilolmaları 39,5 faiz artıb

Naxçıvan Muxtar Respublikasında vergi daxilolmalarında müsbət dinamika davam edir. 2023-cü ilin 5 ayında muxtar respublikanın Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 63,3 milyondan çox vergi daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 39,5 faiz və ya 17,9 milyon manat çoxdur. Təkcə bu ilin may ayı üzrə vergi daxilolmalarında 2022-ci ilin müvafiq dövrünə nisbətən 31,2 faiz və ya 2,9 milyon manat artım qeydə alınıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Naxçıvanda 30045 ədəd çətənə bitkisi kolu kökündən çıxarılaraq məhv edilib



Culfa və Ordubad Rayon Polis şöbələrinin əməkdaşlarının keçirdikləri "Xaşxaş 2023" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilib. Keçirilən tədbir nəticəsində yabanı halda bitmiş 30045 ədəd çətənə bitkisi kolu kökündən çıxarılaraq toplanılıb və yandırılma üsulu ilə məhv edilib. Faktla bağlı İstintaq və Təhqiqat qrupunda araşdırma aparılır.

## İmtahanlar keçirilib

İyunun 11-də Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin magistraturalarına qəbul (II cəhd), doktorantura və dissertantura səviyyəsində xarici dil fənni üzrə qəbul və fəlsəfə doktoru, ali təhsil müəssisələrinin qabiliyyət tələb edən musiqi sənəti istiqaməti üzrə test imtahanları keçirib.

Magistraturaya qəbul imtahanı respublikanın 7 şəhər və rayonunda, ümumilikdə, 71 binada təşkil olunub. İmtahanda 17 min 705 nəfər iştirak edib ki, onların 16 min 461-i Azərbaycan, 1244-ü isə rus bölməsi üzrə imtahan verib. Doktorantura və dissertantura səviyyəsində xarici dil fənni üzrə qəbul və fəlsəfə doktoru imtahanı Bakı və Naxçıvan şəhərlərində təşkil edilib. İmtahanda, ümumilikdə, 2324 nəfər iştirak edib. Bakı, Gəncə və Naxçıvan şəhərlərində təşkil olunan musiqi sənəti istiqaməti üzrə 1072 abituriyent imtahan verib. Naxçıvan Muxtar Respublikasında magistraturaya qəbul imtahanı 2 binada təşkil edilib və 463 nəfər imtahanda iştirak edib. Doktoranturaya xarici dildən qəbul və fəlsəfə doktoru imtahanında 79 namizəd, musiqi istiqaməti üzrə ali məktəbə qabiliyyət imtahanında isə 152 abituriyent iştirak edib.

***Xəbərlər şöbəsi***

## Tələbələr ümumrespublika vergilər olimpiadasının qalibləri oldular

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və "PWC Azərbaycan" şirkətinin birgə təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Vergilər" mövzusunda ümumrespublika olimpiadasının yekun mərhələsi keçirilib.

Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin Şamaxıda yerləşən inzibati binasında təşkil olunan olimpiadada 20 universitetin 500 tələbəsi arasından 1-ci mərhələdə uğur qazanan 100 tələbə olimpiadanın yekun mərhələsində iştirak edib.



"Vergilər" mövzusunda ümumrespublika olimpiadasının yekun mərhələsində Naxçıvan Dövlət Universitetinin tələbəsi Nail Mustafazadə II, Nicat Məmmədli isə III yerə layiq görülüb. Həmçinin yüksək nəticə göstərdiyi üçün mükafatlandırılan 3 tələbədən 2-si Naxçıvan Dövlət Universitetinin tələbəsi olduğu üçün ali təhsil ocağının İqtisadiyyat və marketinq kafedrasının müəllimi İsmayıl Bağırov da Dövlət Vergi Xidməti tərəfindən diplomla təltif edilib.

Sırf vergi ixtisası olan nüfuzlu universitetlərin də təmsil olunduğu ümumrespublika vergi olimpiadasında iştirak edən Naxçıvan Dövlət Universitetinin 6 tələbəsindən 5-i toplanılan bal sıralamasında 100 tələbə arasında ilk onluğa düşüb.

Qaliblərə hədiyyələr və sertifikatlar təqdim olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

Əfsanəyə dönən ömürlər

# İgid, qorxmaz, cəsur Vətən oğlu – Səbuhi Tağıyev



***Şəhidlik ən ali zirvə, ən yüksək məqamdır. Bu məqama yalnız seçilmişlər yüksələ bilər. O seçilmişlər ki hər birinin ömür yolu, şücaəti gələcək nəsillər üçün örnəkdir. Səbuhi Tağıyev də vətənpərvərliyi, cəsurluğu, qorxmazlığı, qəhrəmanlığı ilə örnək şəhidlərimizdən biridir.***

O, 1998-ci il iyunun 22-də Şahbuz rayonunun Şada kəndində anadan olmuş, 2004-2015-ci illərdə Badamlı qəsəbəsində orta təhsil almışdı. 2013-cü ildə Naxçıvan Şəhər Peşə Məktəbində traktor-maşinist ixtisası üzrə oxumuş, kompüter kursunu bitirmişdi. 2016-2017-ci illərdə hərbi xidmət keçmiş, Vətəninə xidmət üçün hərbçi olmağı seçmişdi. 2019-cu ildə kurs keçdikdən sonra Şadada, sonra Naxçıvanda hərbi hissələrdən birində xidmət etmişdi. Səbuhi Tağıyev 2021-ci ildə könüllü olaraq getdiyi Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində yerləşən “N” hərbi hissələrdən birində hərbi xidmət edirdi.

44 günlük şanlı Zəfərimizdən uzun müddət keçməsinə baxmayaraq, Ermənistan sərhəddə təxribatlar törətməyə davam edir, heç bir öhdəliyə məhəl qoymurdu. Bu il aprelin 11-də



Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən üzbəüz mövqelərini atıcı silahlardan intensiv atəşə tutmuşdu. Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki vermiş, təxribatın qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmişlər. Şəhidimiz Səbuhi Tağıyev Şahbuz rayonunun Badamlı qəsəbəsində dəfn olunub.

Səbuhi Tağıyevin həyat yolunu işıqlandırmaq məqsədilə hazırda ailəsinin yaşadığı Şahbuz rayonunun Badamlı qəsəbəsinə getdik. Çox çətin idi hələ ölümündən qısa müddət keçmiş şəhidimizin ailəsini danışdırmaq, onların qanayan yaralarına toxunmaq. Lakin şəhidlərimizi tanımaq və tanıtmaq borcumuzdur. Şəhidimizin yaşadığı evə daxil oluram, hər tərəf onun fotoşəkilləri ilə bəzənib. Şəhidimizin saf, təmiz, bir o qədər də cəsur, qorxmaz siması diqqətimi çəkir.

Ata Gündüz Tağıyevlə çətin də olsa, söhbətə başlayırıq. Onun dediklərindən: – Səbuhi evimizin böyük oğlu idi. Ondan başqa bir qardaşı, bir bacısı var. Qardaşı Sərdar da Şahbuz briqadasında hərbi qulluqçudur. Övladlarımın ikisi də hərbi qulluqçu olmağı, Vətənə qulluq etməyi seçib. Səbuhinin ürəyi çox saf idi. Darda, çətində olan hər kəsə kömək etməyə çalışar, hamının əlindən tutardı. Əldən tutmaq bizim qanımızdadır. Lakin o başqa cür idi, qohumcanlı, mehriban, ailəsinə, dost-tanışlarına candan yanan idi. Yaşadığımız qəsəbədə, eləcə də öz yoldaşları arasında özünə böyük hörmət qazanmışdı. Elə Naxçıvan Beynəlxalq Hava Limanında qarşılayarkən, doğma torpağında əbədi mənzilə yola salarkən də onu hamı əziz etdi. Dəfn günü göydən bir leysan töküldü ki, sanki bütün dağ, daş da onun ölümünə ağlayırdı. Mərasimdə hərbçi yoldaşları, rəsmi şəxslər, rayon sakinləri iştirak edirdilər. Oğlumun 40 mərasimində Milli Məclisin deputatlarından Adil Əliyev və Cəbi Quliyev iştirak edib, bizə başsağlığılarını çatdırdılar, qayğılarımızla maraqlandılar. Onlara, eləcə də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad müəllimə minnətdarlığımızı bildiririk. Şəhidlərimiz dövlətimiz tərəfindən daim diqqətdə saxlanılır. Gənc nəsillərə onların vətənpərvərlik yolu çatdırılır.

Gündüz müəllim qeyd edir ki, şəhidlik hamıya qismət olmur: – 1990-1992-ci ildə Şadada ermənilərlə əliyalın, silahsız döyüşmüşəm. Mənə şəhidlik qismət olmadı. Demək, bu yüksək ad hamıya nəsib olmur. Şəhidlik bir tərəfdən də Allahın yazdığı yazıdır. Biz fəxr edirik ki, Allah taala belə şərəfli bir yazı yazıbmış Səbuhiyə. Kim istəməz ki, elə bir alın yazısı olsun.

Şəhidimizin anası ***Ceyhunə Tağıyeva*** deyir ki, oğlum 2021-ci ildə bizdən xəbərsiz ərizə yazıb verib korpusa ki onu könüllü Qarabağ torpağına aparsınlar. 2021-ci il iyulun 26-da Bakıdan Laçına yola düşüb, 1 il 8 ay olardı, Laçında idi. O torpaqlara gedəndən heç vaxt narazılıq etməyib, həmişə deyirdi ki, mən yerimdən razıyam. Ötən il sentyabr ayında sürücülük vəsiqəsini dəyişməyə Naxçıvana gəlmişdi. Dedim iki qardaş, bir bacı oturun şəklinizi çəkim. Qayıtdı ki, ana, qorxursan ki, şəhid olaram?! Mən Səbuhi ilə fəxr edirəm. Beş il olardı hərbidə işləyirdi, yüksək əməkhaqqı alırdı. Aldığı maaşı tək özünə yox, kimin köməyə ehtiyacı var idi ona xərcləyirdi. Öz əyninin təzə paltarını da bir kasıba verirdi. Çox mərhəmətli idi. Bacısı 4 il universitet oxudu, hər ay onun yolpulunu verirdi. Elə həmişə deyirdi, ana, hər şey yaxşı olacaq. Şəhid olmamışdan bir gün qabaq danışmışdıq. Dedi ki, komandir buradadı, mən də maşında gözləyirəm. Elə şəhid olduğu yerdə imişlər həmin gün. Axşamçağı telefonu aldım əlimə gördüm yazılıb ki, Laçında üç şəhidimiz olub. Özümü itirdim, qapını açıb çölə qaçdım. Gördüm ki, millət elə gəlir üstümə, sanki yağış gəlir, qar gəlir, boran gəlir. Əvvəlcə dedilər ki, Səbuhi yaralanıb gətirirlər, lakin inanmadım. Acı mənzərədir, Allah heç kimə göstərməsin. Hamı balamı əzizlədi. Xalasına yuxuda deyib ki, bilirdim, hamı məni istəyir, ancaq bu qədər çox istəmələrini bilmirdim. Mənim üçün hər gün Səbuhinin öldüyü gündür, – deyir ana.

Səbuhini 6 yaşına qədər saxlamış, qayğısını çəkmiş nənəsi ***Gülxar Məmmədova*** qəhərdən çətinliklə danışır: – 9 nəvəm var, başımın tacı, istəklim Səbuhi idi. 6 yaşına qədər saxlamışan. Mənim elim, günüm olub. Əslən Zəngilan rayonundanam, o vaxt bütün ailə üzvlərim oradan qaçqın düşdü, izləri itdi. Onların dərdi məni üzürdü. Zəngilan işğaldan azad olunanda özümdə az da olsa, toxtaqlıq tapmışdım. Ancaq Səbuhi elə etdi ki, ailəmin dərdi yadımdan çıxdı. Səbuhi qoçaq, cəld, işgüzar, mehriban, qohumcanlı idi. Necə gözəl, ruzili uşaq idi ki, dəfn mərasimində yağış, nur yağırdı. Mənim nəvəm qohum-qardaşın, dost-tanışın qəlbində, ürəyində o qədər yer salıb ki özünə. Dünyanın ən gözəl sözləri ona yaraşır. Hamıdan qabaqda birinci o gedirdi. Öz istəyi ilə Laçına getmişdi. Nə vaxt soruşurdum deyirdi, hər şey yolundadır, fikir eləmə. Özümə ev alıb Laçında qalacağam, elə gözəl yerlərdir ki buralar. Səbuhinin ölümü bizim pərgarımızı pozdu, ürəyimizi üzdü, qutardı. Amma bir o qədər də qürurluyuq ki, o, Vətən uğrunda canından keçib, gənc yaşda bütün insanların qəlbində özünə yuva qurdu.

Babası ***Tofiq Məmmədov*** da nəvəsinin cəsur, ürəkli, qorxusuz olduğunu deyir: – Hər bir oğulun işi deyil ki, 50-60 nəfər erməninin içərisinə qorxusuzca getsin. Onlarla böyük cəsarət və qəhrəmanlıqla əlbəyaxa döyüşsün. Səbuhi həmişə qəlbimizdə, ürəyimizdə yaşayacaq.

Ailəyə səbir diləyib Naxçıvana yola düşürük. Düşünürəm ki, xalqımız, həqiqətən də, xoşbəxt xalqdır, ona görə ki, Səbuhi kimi cəsur, qəhrəman, igid övladları var. Necə də olmasın, onlar əqidəli, genişürəkli, mənəvi cəhətdən zəngin xüsusiyyətlərə malik ata-anaların övladlarıdır. O vətənpərvər övladlarımız ki məhz müqəddəs Vətənlərinin yolunda gözlərini qırpmadan canlarını fəda etdilər. Şəhidlərimizlə fəxr edirik, onların igidlikləri heç vaxt yaddaşlardan çıxmayacaq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 12 iyun 2023-cü il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 689 | - | - | - |
| 2. | Şərur rayonu | 4189 | 19 | 57,7 | 30,4 |
| 3. | Babək rayonu | 6886 | 99 | 138,6 | 14 |
| 4. | Ordubad rayonu | 856 | 50 | 69 | 13,8 |
| 5. | Culfa rayonu | 2181 | 90,4 | 170,2 | 18,8 |
| 6. | Kəngərli rayonu | 3780 | 45 | 114 | 25,3 |
| 7. | Şahbuz rayonu | 756 | - | - | - |
| 8. | Sədərək rayonu | 1910 | 120 | 300 | 25 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21247** | **423,4** | **849,5** | **20.1** |

Gəncliyimiz, gələcəyimiz

# ABŞ-ın 6 universitetindən təklif alan naxçıvanlı şagird



***Dövlət İmtahan Mərkəzi tərəfindən II və III ixtisas qrupları üzrə 20-21 may 2023-cü il tarixlərdə keçirilmiş qəbul imtahanlarının nəticələri elan olunub. Bu imtahanda II ixtisas qrupu üzrə isə ən yüksək nəticəni Naxçıvan Muxtar Respublikası Şərur rayon Kürçülü kənd tam orta məktəbinin şagirdi göstərib. 394 bal toplayan məktəbin məzunu Mikayıl Cəfərli II ixtisas qrupu üzrə ən yüksək nəticə əldə edib – 690.7 bal.***

Məktəbin direktoru ***Zülfiyyə İbrahimova*** məktəbin uğurları haqqında danışaraq deyir: “Bu il məktəbin 8 məzunundan 7-si artıq tələbə adını qazanıb. Bu nəticə onu göstərir ki, məktəbimiz hər il olduğu kimi, cari ildə də yüksək təhsili, nizam-intizamı ilə seçilir. Ələxüsus da, ölkə üzrə ən yüksək nəticəni göstərən şagirdin Kürçülü kənd tam orta məktəbindən olması qürurvericidir. Mikayıl Cəfərlinin qəbul imtahanında daha böyük uğurlar qazanacağına inanırdım”.

Azərbaycan dili və ədəbiyyat müəllimi ***Rəşadə Seyidova*** deyir ki, Mikayıl hər zaman öz savadı ilə digər şagirdlər üçün nümunə olub: “Uzun illərdir, Mikayıla dərs deyirəm və onun necə bir şagird olduğunu, biliklərə dərindən yiyələnməyə çalışdığını, bütün fənləri səy və əzmkarlıqla öyrəndiyini, müəllimlərin etimadını hər zaman doğrultduğunu digər şagirdlərə də nümunə göstərmişəm. Onun gələcəkdə daha böyük uğurlar qazanacağına inanıram. Çünki Mikayıl hər şeydən öncə, məsuliyyəti, əzmkarlığı, səmimiyyəti, davranışı ilə seçilib və dostlarına, sinif yoldaşlarına hər zaman kömək edib. Ölkə üzrə ən yaxşı nəticəni göstərmək isə biz müəllimləri qürurlandırır. Çünki Mikayıl buna layiq bir şagirddir və uzun illər çəkdiyi əziyyətin bəhrəsini gördü”.

Bəs ***Mikayıl Cəfərli*** hansı universitetdə təhsil almaq istəyir? II ixtisas qrupu üzrə ən yüksək nəticəni göstərib tələbə adını qazanan Mikayıl artıq ABŞ-ın 6 universitetindən təklif alıb: “Qəbul imtahanının cavabları açıqlananda sevindim. Mən imtahana ciddi hazırlaşmışdım. Nəticəmin yüksək olacağına da əmin idim. İstərdim ki, tam nəticə göstərim. İndi yenə hazırlaşıram və Dövlət İmtahan Mərkəzinin növbəti imtahan şansından istifadə edəcəyəm. İlk imtahanda tarix və coğrafiya fənlərindən situasiya suallarında səhv etmişəm. Məqsədim tam 400 bal toplamaqdır. Mən Türkiyə universitetlərinə də sənəd vermişəm, eyni zamanda altı ABŞ universitetindən də təklif aldım. Sonuncu dəfə, Miçiqan Universitetindən təklif aldım. Hətta burada təqaüd əsaslı təhsil almaq şansım barədə də məlumat verilib. Ancaq maddi problemlər səbəbi ilə ABŞ universitetlərindən birində təhsilimi davam etdirə bilmirəm. Alternativ olaraq da Bakı Ali Neft Məktəbi və ya Azərbaycan İqtisad Universitetini seçə bilərəm”.

Mikayılın valideyni ***Aynurə Cəfərova*** həm də övladının sinif rəhbəridir. Hər bir valideyn kimi övladının daha böyük universitetlərdə təhsil almasını arzu edən Aynurə xanım deyir: “Bu il Mikayıl mənə bu sevinci iki dəfə yaşadıb. İlk olaraq, o, buraxılış imtahanında ən yüksək nəticəni göstərərək muxtar respublika üzrə birinci oldu. Daha sonra isə qəbul imtahanında eyni nəticəni təkrarladı. İndi Mikayıl seçim edəcək. Artıq Amerikanın 6 universitetindən təklif gəlib, ancaq orada oxuyub-oxumayacağını bilmirik. Çünki buna maddi durumumuz imkan vermir. Yenə də gözləyirik və seçim Mikayılın olacaq”.

*İnanırıq ki, yüksək intellektual potensiala malik istedadlı gəncimiz Mikayıl Cəfərlinin xaricdə ali təhsil alaraq gələcəyin yüksəkixtisaslı mütəxəssisi kimi yetişməsi üçün dövlətimiz və maddi imkanlı şəxslər ona hərtərəfli dəstək olaraq bu arzusunun reallaşmasına kömək göstərəcək.*

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində işə qəbulla bağlı müsabiqə elan edilib

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində vakant hüquqşünas vəzifələrinə işə qəbulla bağlı birbaşa müsahibə yolu ilə müsabiqə keçiriləcək. Müsabiqədə iştirak etmək istəyən və elanda göstərilmiş şərtlərə uyğun gələn namizədlər “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”nin 1.7-ci bəndinə əsasən müsabiqənin test imtahanı mərhələsindən azad edilirlər. Namizədlər 12 iyun 2023-cü il tarixdən 12 iyul 2023-cü il tarixədək İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəsmi internet səhifələrinə *(www.taxes.gov.az və www.vergi.nakhchivan.az)* daxil olaraq yerləşdirilmiş elanda göstərilən elektron ərizə formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər. Müsahibə 28 iyul 2023-cü il tarixdən başlayaraq Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Müsabiqə Komissiyası tərəfindən aparılacaq.

İşə qəbul üzrə müsabiqənin müsahibə mərhələsi başa çatdıqdan sonra nəticələr İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəsmi internet səhifələri vasitəsilə ictimaiyyətə elan ediləcək. Müsahibədən uğurla keçən namizədlər kadr ehtiyatına daxil olunaraq həmin dövr üzrə vakant olan vəzifələrə təyin ediləcəklər. Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinə işə qəbul müsabiqəsində uğur qazanan namizədlərin kadr ehtiyatında saxlanılma müddəti 2 ildir.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinə işə qəbulla bağlı müsabiqə elanı ilə aşağıdakı link vasitəsilə daha ətraflı tanış ola bilərsiz: *https://bit.ly/43W0knK*

### İtmişdir

Əsgərov Əli Mütəllim oğlunun adına Naxçıvan şəhəri, 11-ci məhəllədə mülkiyyətində olan 1 mərtəbəli, 3 otaqlı, 49,48 kvadrat kilometr yaşayış, 88,3 kvadrat kilometr köməkçi sahədən ibarət olan 1A nömrəli fərdi yaşayış evinin MH-0016785 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Əsgərov Mütəllim Abbas oğlunun adına Babək rayon Şıxmahmud kəndində yerləşən mağazanın çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Qorçulu kəndində yaşamış Quliyev Əli Qədim oğlunun adına olan JN-16A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Gömür kəndində Məhərrəmov Əhəd Bayram oğlunun adına verilmiş JN-113A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Kırna kəndində Süleymanov Abbas Heydər oğlunun adına verilmiş JN-168A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 381